# COP29-da "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı tədbir keçirilib

**COP29 çərçivəsində Azərbaycan pavilyonunda "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı sessiya keçirilib.**




AZƏRTAC xəbər verir ki, sessiyada çıxışında Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatının baş katibi Jan Pier Elonq Mbassi COP29-un yüksək səviyyədə təşkilatçılığını qeyd edib və öz təşkilatı barədə ətraflı məlumat verib.

"Mən qərargahı Mərakeşin Rabat şəhərində yerləşən submilli təşkilatın ümumi təşkilatı olan Birləşmiş Şəhərlər və Afrika Yerli Hökumətinin baş katibiyəm və Şərqi Afrika üçün Keniya, Nayrobi, Cənubi Afrikada isə Viktoriya şəhərində bizim regional ofislərimiz var. Beləliklə, biz bütün qitəni əhatə edirik. Submilli və yerli hökumətlərin mandatlarının məqsədi bu yerli hökuməti qorumaq, ölkədə söz sahibi olmaqdır. Beləliklə, biz Yerli İdarəetmələr Milli Assosiasiyasının dəstəyinə sahibik", - deyə baş katib vurğulayıb.

İqlim dəyişikliyinin icmalarına təsirindən narahat olduğunu deyən Jan Pier Elonq Mbassi bu dəyişikliyin qitə və şəhərlərə fəlakətli təsirlərini gördüyünü qeyd edib: "Meşə yanğınları, qasırğalar, daşqınlar və quraqlıq kimi daha tez-tez, daha şiddətli və əvvəllər gözlənilməz hadisələr nəticəsində iqlimə davamlı şəhərlər, infrastruktur yenidən işlənməldir. Enerji və su ilə mühafizəsi, şəhərlərimizin və strukturlarımızın iqlim hadisələrinə tab gətirə bilməsini təmin etmək üçün daha çox iş görməliyik".

EY şirkətinin təşkilatçılığı ilə keçirilən sessiyada dünyada şəhərlərin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün apardıqları səylər müzakirə olunub. Yaşıl sahələrin təkmilləşdirilməsi, istixana qazı emissiyalarının azaldılması və davamlı nəqliyyat seçimlərinin inkişafı kimi əsas ekoloji problemlərə yönəlmiş şəhər rəhbərliyindəki nümunəvi layihələr nümayiş etdirilib.


Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.15.